**Azərbaycan Respublikası tərəfindən 1995-ci il yanvarın 10-da təsdiq edilmiş birləşmiş millətlər təşkilatının iqlim dəyişmələri üzrə çərçivə konvensiyasına uyğun Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası tərəfindən 1995-ci il yanvarın 10-da təsdiq edilmiş Birləşmiş Millətlər Təşkilatının iqlim dəyişmələri üzrə çərçivə konvensiyasına uyğun Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərini yerinə yetirmək, iqlim dəyişmələri nəticələrinin ölkənin iqtisadiyyatına və əhalisinin sağlamlığına mənfi təsirinin qarşısını almaq üçün kompleks tədbirlərin hazırlanıb həyata keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Qlobal və regional iqlim dəyişmələrinin mənfi təsirinin qarşısının alınması ilə əlaqədar milli strateji proqramın və layihələrin, habelə atmosferə atılan və parnik effekti yaradan qazların kadastrının hazırlanmasını, həmin qazların monitorinqinin, habelə ekologiya, səhiyyə və iqtisadiyyatın enerjitutumlu sahələrində müasir tələblərə cavab verən elmi-tədqiqat işlərinin aparılmasını, bu sahədə kadrların hazırlanmasını, BMT-nin yuxarıda adı çəkilən konvensiyasından irəli gələn digər öhdəliklərin yerinə yetirilməsini təmin etmək, habelə bunlar üçün elmi-texniki yardım, maliyyə vəsaiti və müasir texnologiyaların alınmasını təşkil etmək məqsədi ilə vəzifələrinə görə aşağıdakı şəxslərdən ibarət Dövlət Komissiyası yaradılsın: [1]

***Dövlət Komissiyasının sədri*** [2]

*Əli Əhmədov – Azərbaycan Respublikası Baş Nazirinin müavini*

***Dövlət Komissiyasının sədrinin müavini***

*Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri*

***Dövlət Komissiyasının üzvləri***

*Azərbaycan Respublikasının Maliyyə naziri*
*Azərbaycan Respublikasının İqtisadiyyat naziri*
*Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri*
*Azərbaycan Respublikasının Səhiyyə naziri*
*Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini*
*Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini*
*Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti*
*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti*
*"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti*
*Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri.*

2. Dövlət Komissiyasına tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilmiş tədbirlərin BMT-nin iqlim dəyişmələri üzrə çərçivə konvensiyasında müəyyən edilmiş müddətlərdə həyata keçirilməsini təmin etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 aprel 1997-ci il
560

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 27 sentyabr 2003-cü il tarixli 1338 nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 9, maddə 512** )
2. 28 sentyabr 2007-ci il tarixli 633 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 9, maddə 871)**
3. 10 sentyabr 2008-ci il tarixli 825 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 9, maddə 797)**
4. 23 iyun 2010-cu il tarixli **286** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 6, maddə 501)**
5. 11 mart 2020-ci il tarixli **1920** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 12 mart 2020-ci il, 55, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 3, maddə 305)**


SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 27 sentyabr 2003-cü il tarixli 1338 nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik**

**Toplusu, 2003-cü il, 9, maddə 512 ) ilə** 1-ci bəndinin beşinci abzasında "Zülfüqar Musayev - Azərbaycan Respublikası Dövlət Hidrometeorologiya Komitəsinin sədri" sözləri "Hüseynqulu Bağırov - Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri" sözləri ilə əvəz edilmişdir.

28 sentyabr 2007-ci il tarixli 633 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 9, maddə 871)** ilə 1-ci bəndində "**Əli İnsanov - Azərbaycan Respublikasının səhiyyə naziri**" sözləri "**Oqtay Şirəliyev - Azərbaycan Respublikasının səhiyyə naziri**" sözləri ilə əvəz edilmişdir.

27 sentyabr 2003-cü il tarixli 1338 nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 9, maddə 512 )** ilə on dördüncü abzasından "Telman İsmayılov - Azərbaycan Respublikası Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi sədrinin birinci müavini" sözləri çıxarılmışdır.

23 iyun 2010-cu il tarixli **286** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 6, maddə 501) ilə** Sərəncamının 1-ci bəndindən "**Fikrət Sadıqov — "Azərikimya" Dövlət Şirkətinin prezidenti**" sözləri çıxarılmışdır.

27 sentyabr 2003-cü il tarixli 1338 nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 9, maddə 512 ) ilə** iyirmi birinci abzasından "Musa Məmmədov - "Azərbmeşə" İstehsalat Birliyinin baş direktoru" sözləri çıxarılmışdır.

10 sentyabr 2008-ci il tarixli 825 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 9, maddə 797)** ilə 1-ci bəndində **"Dövlət Konserninin baş direktoru"** sözləri **"Qapalı Səhmdar Cəmiyyətinin prezidenti"** sözləri ilə əvəz edilmişdir.

27 sentyabr 2003-cü il tarixli 1338 nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 9, maddə 512 ) ilə** iyirmi birinci abzasından "Musa Məmmədov - "Azərbmeşə" İstehsalat Birliyinin baş direktoru" sözləri çıxarılmışdır.

[2] 11 mart 2020-ci il tarixli **1920** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 12 mart 2020-ci il, 55, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 3, maddə 305)** ilə 1-ci hissəsi ilə yaradılmış Dövlət Komissiyasının tərkibi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

**~~Dövlət Komissiyasının sədri~~**

| | |
|---|---|
| ~~Abid Şərifov~~ | ~~- Azərbaycan Respublikası Baş nazirinin müavini~~ |

**~~Dövlət Komissiyası sədrinin müavini~~**

| | |
|---|---|
| ~~Hüseynqulu Bağırov~~ | ~~- Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri~~ |

**~~Dövlət Komissiyasının üzvləri~~**

| | |
|---|---|
| ~~Fikrət Yusifov~~ | ~~- Azərbaycan Respublikasının maliyyə naziri~~ |
| ~~Namiq Nəsrullayev~~ | ~~- Azərbaycan Respublikasının iqtisadiyyat naziri~~ |
| ~~İrşad Əliyev~~ | ~~- Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri~~ |
| ~~Oqtay Şirəliyev~~ | ~~- Azərbaycan Respublikasının səhiyyə naziri~~ |
| ~~Albert Salamov~~ | ~~- Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini~~ |
| ~~Azad Mirzəcanzadə~~ | ~~- Azərbaycan Respublikası Dövlət Elm və Texnika Komitəsinin sədri~~ |
| ~~Əhməd Əhmədzadə~~ | ~~- Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri~~ |
| ~~Telman İsmayılov~~ | ~~- Azərbaycan Respublikası Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi sədrinin birinci müavini~~ |
| ~~Fərəməz Maqsudov~~ | ~~- Azərbaycan Respublikası Elmlər Akademiyasının prezidenti~~ |
| ~~Natiq Əliyev~~ | ~~- Dövlət Neft Şirkətinin prezidenti~~ |
| ~~Müslüm İmanov~~ | ~~- "Azərenerji" Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri~~ |
| ~~Fikrət Sadıqov~~ | ~~- "Azərkimya" Dövlət Şirkətinin prezidenti~~ |
| ~~Hüseyn Hüseynov~~ | ~~- "Azəravtonəqliyyat" Dövlət Konserninin prezidenti~~ |
| ~~Cahangir Əsgərov~~ | ~~- "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti~~ |
| ~~Musa Məmmədov~~ | ~~"Azərbmeşə" İstehsalat Birliyinin baş direktoru~~ |
| ~~Tofiq Həsənov~~ | ~~- "Metallurgiya" Dövlət Şirkəti prezidentinin əvəzi~~ |
| ~~Fərman Vəlizadə~~ | ~~- "Azəriqaz" Səhmdar Cəmiyyətinin icarə heyətinin sədri~~ |